*Kamal Abdulla Azərbaycan ədəbiyyatında öz yeri olan böyük alim, görkəmli söz ustasıdır. Onun geniş auditoriya tərəfindən sevilərək oxunan əsərləri sadəcə Azərbaycanda deyil, müxtəlif dillərə tərcümə edilərək bir çox xarici ölkədə də işıq üzü görüb. Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus rolu olan Kamal Abdullanın yaradıcılığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilib və ədib Xalq yazıçısı adına layiq görülüb. Kamal müəllimin bir çox əsərləri həm də səhnələşdirilərək böyük tamaşaçı rəğbəti qazanıb. Kamal Abdulla təkcə görkəmli yazıçı, dəyərli ziyalı kimi tanınmır. O, həm də ictimai xadimdir. Azərbaycanda yaşayan müxtəlif xalqların mədəniyyətinin təbliği, dini və milli icmaların fəaliyyətinin tənzimlənməsi, ölkəmizdə multikulturalizm ənənələrinin yayılmasında Kamal Abdullanın xüsusi rolu var. O, 2014-2017-ci illərdə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri olub. Kamal müəllim həm də 2014-cü ildən Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə yaradılan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədridir. Mərkəzin fəaliyyətində və inkişafında onun xidmətləri əvəzsizdir. Azərbaycan üçün qələbə müjdəli 2020-ci il professor, Xalq yazıçısı Kamal Abdulla üçün həm də 70 illik yubileyi ilə əlamətdardır. Kamal müəllimi yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona cansağlığı və yaradıcılıq uğurları arzulayırıq. Təbrikə Multikulturalizm Mərkəzinin kollektivi ilə yanaşı, Azərbaycanda fəaliyyət göstərən milli və dini icmaların rəhbərləri də qoşulur. Onların bəzilərinin arzu və diləklərini əks etdirən təbriklərini oxucuların diqqətinə təqdim edirik.*

***Rəvan HƏSƏNOV,***
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru*